# "Şəhidlər ölməz, Vətən bölünməz!"

## Zaqatalının İkinci Vətən Müharibəsindəki ilk şəhidi – ELVİN



***...Torpaq, əgər uğrunda ölən varsa Vətəndir! Uğrunda canlar fəda olan Azərbaycanımızın Qarabağ bölgəsində Şanlı Ordumuz – torpaqlarımızın düşmən tapdağından azad olunması uğrunda ölüm-dirim savaşı aparır. Xilaskarlıq missiyasını yerinə yetirmək, mənfur xislətli ermeniləri ərazilərimizdən təmizləyərək – torpaqlarımızı daha da müqəddəsləşdirir və xalqımızı yenilməz edir. Ali Baş Komandanın rəhbərliyi ilə, mərd - qorxmaz zabit və əsgərlərimiz düşmənə layiqincə zərbələr endirir, onların 30 ilə yaxın müddətdə xalqımıza qarşı tuşladıqları hərbi sursatları, silahları susdurulur, məhv edilir. Xain ermənilər cəbhədən kənarda yerləşən rayon, şəhərlərimizə raketləri, mərmiləri mülki insanlarımıza atsalar da döyüşçülərimiz cəbhə boyu irəliləyir və hər gün işğal altında olan kənd, qəsəbə, rayonlarımızı azad edirlər. Həm də üçrəngli Azərbaycan bayrağını dalğalandırırlar.***

Sentyabrın 27 –dən mənfur ermənilərin tərxibatından sonra milliyyətindən, mənsubiyyətindən asılı olmayaraq minlərlə vətənpərvər Azərbaycan gənci Vətənimizin müdafiəsinə qalxdı və ön cəbhəyə yola düşdülər. Torpaqlarımızı işğalçı erməni düşmənlərindən azad etmək üçün son damla qanınadək mübarizə aparmaq üçün. Hər bir kəs, Azərbaycan vətəndaşı – bu günlər mübariz ruhda köklənib.

Birinci Qarabağ savaşında olduğu kimi 27 sentyabr 2020 –ci il tarixindən başalayan İkinci Vətən Müharibəsində də - Ali Baş Komandanın əmrindən sonra çoxmillətli Zaqatalanın yüzlərlə gənc vətənpərvəri cəbhəyə yola düşüb – düşmənə qarşı ön cəbhədə vuruşurlar. Hal-hazırda Zaqatalada yaşayan Azərbaycanlılarla yanaşı, avarlar, saxurlar, yengiloylar və digər millətlərin neçə-neçə gənci həm səfərbərlik, həm də könüllü olaraq Şanlı Ordumuza köməyə gediblər. Eyni zamanda rayondan olan yüzlərlə zabit və hərbi qulluqçularımız – həqiqi hərbi xidmətdən müharibənin ən qaynar nöqtələrində xidmət edirlər. Onlar erməni faşistlərinə mərdliklə qan uddururlar. Zaqatalalı gənclərin də amalı birdir – işğal altında olan torpaqları erməni düşmənlərindən azad etmək – Azərbaycanımızı, Qarabağımızı qorumaq! Canları, qanları bahasına!

Şübhəsiz ki, müharibə ölümsüz, itkisiz ötüşmür. Artıq torpaqlarımızın azadlığı uğrunda gedən döyüşlərdə şəhid olanlar Birinci Qarabağ şavaşında olduğu kimi bu dəfə də ilk Şəhid saxur millətindən olan Elvin Azər oğlu Qədirovdur ki – Yeni Suvagil kəndinə gətirilib. Şəhidlik zirvəsinə yüksələn – 19 yaşlı Elvini rayon ictimaiyyəti – 28 sentyabr 2020 –ci il tarixində kənd qəbristanlığında – 1992 –ci ildə Qarabağdan Ağdam rayonunun Papravənd kəndində gedən döyüşlərdə qəhrəmanlıqla həlak olan əmisi – Akif Qədir oğlu Qədirovun məzarının yanında torpağa tapşırıldı. Elvin də, əmisi kimi – qorxmadan, mərdliklə - düşmənlə mübarizə aparıb və şəhidlik zirvəsinə yüksəldi. Qeyd edək ki, Elvin Qədirov həqiqi hərbi xidmətdə idi və yanvar ayında hərbi qulluğunu başa vurmalı idi. O, 2001 –ci ilin may ayının 5 –də Zaqatala rayonunun Yeni Suvagil kəndində dünyaya göz açmışdır və ailənin ikinci övladı idi. Atası Azər, anası Zəminə hər iki övladını zəhmətkeş və vətənpərvər ruhda böyütmüşdür. O, həyatda görmədiyi əmisinin – savaşdakı qəhrəmanlığı və Vətən yolunda şəhid olması da, Elvinin doğma Azərbaycana bağlılığına, döyüşkən, qorxmaz olmasına təsirsiz olmamışdır. Tarixi mükəmməl bilən atası Azər isə həmişə övladlarına – tarixdə baş verən hadisələrdən, müharibələrdən, torpaq uğrunda gedən savaşlardan danışardı. Qeyd edək ki, şəhid Elvin Qədirov Akif Qədirov adına 2 saylı Yeni Suvagil kənd tam orta məktəbini müvəffəqiyyətlə bitirib, 2019 –cu ilin iyulun 8 –də həqiqi hərbi xidmətə çağırılıb və Müdafiə Nazirliyinin Ağdam bölgəsində yerləşən N saylı hərbi hissəsində - Vətənimizi qoruyurdu. Məhəmməd Şabanoğlunun "Ağlama şəhid anası" şeirində deyildiyi kimi:

**Keçər tarix, dönər zaman,**
**Unudulmaz o, qəhrəman!**
**Bu xəbəri bildiyi an,**
**Dəniz daşdı, göl ağlayır.**

İkinci Qarabağ – Vətən Müharibəsinin Zaqatala rayonundan ilk şəhidi olan Elvin Azər oğlu Qədirov hələ uşaqlıqdan Vətənpərvərlik ruhda böyümüşdü. Çünki, onun mərhum babası (vəfatından 1 il ötüb) Qədir kişi, nənəsi İsmət xanım, əmiləri Abid, Aqşin, atası Azər, bibisi Adilə - ona zəhmətsevərliklə yanaşı, torpağın, doğma Azərbaycanımızın hər qarışını göz bəbəyi kimi qorumaq və sevgi ruhu aşılamışdı. O, həmyaşıdlarına tez - tez Birinci Qarabağ Müharibəsində torpaqlarımızın xilası uğrunda şəhid olmuş - əmisi Akif Qədirovun şücaətindən danışardı. Elvinin də arzusu özünün də iştirakı ilə - Şanlı Ordumuzla birlikdə - Vətənimizin işğal altında olan torpağımızın hər qarışını hiyləgər yağı düşməndən azad etmək idi. Məhz, bu yolda da şəhid oldu və minlərlə insanın qəlbində yuva salaraq - əbədiyyətə qovuşdu.

Taleyin qismətinə bir baxın, Elvinin əmisi – Akif Qədirov da Birinci Qarabağ Müharibəsində Zaqatala rayonundan ön cəbhədəki ilk şəhidi olmuşdu.

***Elvin Qədirov da sentyabrın 27 –də İkinci Qarabağ Müharibəsində cəbhə bölgəsində erməni təxribatının qarşısını alarkən – qəhrəmancasına həlak olan ilk şəhid oldu. Şəhid – Elvin Qədirov xoş xasiyyətli, işgüzar, mehriban, vətənpərvər və mərd gənc idi. Onun böyük arzuları var idi. Bu arzulardan biri həyata keçdi – Şəhidlik zirvəsinə yüksəldi, digər arzu və diləklərini isə özü ilə apardı. Ruhun şad olsun, Elvin!***

**Elman Maliyev**
**Azərbaycan Jurnalistlər Birliyinin üzvü**

Türküstan.- 2020.- 3-9 noyabr.- S.21.